# TUNEL ƏHVALATI



**Tuncər CÜCƏNOĞLU**

***Tuncər Cücənoğlu 10 Aprel 1944-cü ildə Türkiyənin Çorum şəhərində dünyaya gəlib. Ankara Universitetinin dil, tarix və coğrafiya fakültəsini bitirmişdir. Müasir türk dramaturgiyasının dünya miqyasında tanınmış dramaturqlarındandır. Əsərləri 32 dilə tərcümə edilib və dünyanın bir çox teatrlarında tamaşaya qoyulub. "Qadın sığınacağı", "Helikopter", "Gözəlçələr" və s. bu kimi ümumilikdə 27 pyesin müəllifidir. 22 pyesi dilimizə çevrilmişdir. 18 İyul 2019-cu ildə Türkiyədə - İstanbulda vəfat etmişdir.***

***İştirakçılar:***

***Gənc qadın - yaxşı geyimli, mübariz xarakterli, 30 yaşlarında;***

***Qadın - orta təbəqədən bir evdar xanım, 35 yaşlarında;***

***Gənc qız - aşağı təbəqədən, uyğunsuz, həddən artıq gözə girən formada geyinib-keçinib, 20 yaşlarında;***

***Kişi - intellektual görünüşlü, 45 yaşlarında;***

***Cavan oğlan - tələbə, 20 yaşlarında;***

***Sürücü - rəsmi geyimli, 40 yaşlarında;***

***Zaman: bizim günlər;***

***Məkan: Qaraköydə Tunelə çıxası vaqonun içi.***

*(İçəridə Kişi, Qadın, Cavan oğlan və Sürücü var. İntellektual görünüşlü kişi kitab oxuyur. Hərdənbir saatına baxıb, "of"layıb-"uf"layır. Qadın olduqca sakitdir, hörmə ilə məşğuldur. Cavan oğlan qulaqlarını tutub, musiqiyə qulaq asır, hərdənbir ayaqları və əlləri ilə ritm tutur. Laqeyddir, öz aləmindədir, elə bil ki, başqalarını heç görmür. Sürücü pul qabını çıxarıb, nə isə hesabladığını bildirən hərəkətlər edir. Lakin Sürücünün üzü getdikcə bədbin görüntüyə çevrilir. Gənc qız əlində makiyaj çantası ilə damdar paltarlarına güc gələrək, içəri girir. Bir yerdə oturur, makiyaj çantasını açaraq, bəzənməyə başlayır. Bu vəziyyət bir müddət davam edir. Bir az sonra Gənc qadın sürətlə içəri girir. Gözləri ilə axtarıb, bir yerdə oturur.)*

**Gənc qadın:** - Sabahınız xeyir!

**Qadın:** - Sabahınız xeyir!

*(Gözləmə bir az da davam edir)*

**Gənc qadın:** - Bu, nə vaxt tərpənəcək?

**Qadın:** - Bilmirəm.

**Gənc qadın:** - İşimiz-gücümüz var axı...

**Qadın:** - Elədir.

*(Gözləmə davam edir)*

**Gənc qadın:** *(Sürücüyə)* - Eyy, qardaş! Nə vaxt tərpənəcək?

*(Sürücü öz işindədir, eşitmir)*

**Gənc qadın:** - İşə bax!.. Oralı deyil... Məndən başqa heç kim də soruşmur. Quzu kimi oturublar... Eyy, qardaaaaş!.. *(Yerindən durub, Sürücüyə tərəf gedir.)*

**Kişi:** *(Yavaşca)* - Bu qadının cinsi problemi var.

**Gənc qadın:** *(Eşidir)* - Siz nə deyirsiniz, cənab? Deyin görək, hansı qadının cinsi problemləri var?

**Kişi:** *(Özünü yığışdırır)* - Şey... Oxuduğum kitabdakı qadının...

**Gənc qadın:** - Hə... Elə olsun... *(Sürücüyə)* Qardaş!.. Qardaş!.. *(Əli ilə dürtmələyir)* Nə vaxt tərpənəcəyik?

**Sürücü:** - Partlama!..

**Gənc qadın:** - Kobudlaşmayın! Sizdən bir şey soruşdum...

**Kişi:** - Dediyim kimi, bu qadının cinsi problemi var.

**Sürücü:** - Əşi, hamı kimi sən də gözlə də... Nəsə var ki, getmirik də... Əlbət, bir səbəbi var.

**Gənc qadın:** - Nə vaxt gedəcəyik? Deyin də... Əstafurullah!.. Sizə demirəm, deyin?!.

**Sürücü:** *(Nazlı)* - Deyə bilmərəm.

**Gənc qadın:** - Gizlidir?

**Sürücü:** - Əşşi, nə gizli?!. Gizlilik qalıb ki?!. Bas pult deyilən o zəhrimarı, istədiyin kanalı seç. *(Tərif edir)* Tık!.. *(Olduğu kimi deyir)* Bi bi si... Tak!.. Te ve beş... Tık! Tık!.. Sat 1... Tak, tuk, tak!.. Re te le... Alt-alta, üstüstə... Dost ol, yoldaş ol... Yunan-Roma güləşi var, yağlısı var...

**Gənc qadın:** - Sən nə danışırsan, qardaş? Bu, nə danışır?

**Sürücü:** - Elə ki, uşaqları başına yığıb, süfrə arxasında oturmusan... Burdan da deyirsən ki, bir baxım görək, bu lənətə gəlmiş dünyada nələr baş verir. Lənətə gəlmişi söyüb-sulayırsan... Aman Allah, şorba ağzından-burnundan tökülür.

**Gənc qadın:** - Bunların indi nə əlaqəsi var?

**Sürücü:** - Əlaqəsi olmamış olar, xanım?!. Gizlilik deyilən şey bu dünyada qalmayıb. Nə deyiblər, ibadət də gizli, qəbahət də...

**Gənc qadın:** - Bir az diqqətli olsanız, istəmədiyiniz mənzərələrlə qarşılaşmazsınız... İndi siz mənə deyə bilərsinizmi ki, nə vaxt tərpənəcəyik?

**Sürücü:** - Biz indi bir saatdır ki, boş-boşuna danışırıq?

**Gənc qadın:** - Məlumatlandırmaq məcburiyyətindəsiniz.

**Sürücü:** - Keç otur yerində. Vaxtı gələndə, gedəcəyik!

**Gənc qadın:** - Axı niyə demirsiniz, qardaş?

**Sürücü:** - Bu, ağızdır, e!.. Hamının sualına cavab versəm, ohoooo!..

**Gənc qadın:** - Mən hamı deyiləm... Sualıma cavab gözləyirəm...

**Sürücü:** - Gözlə. Gözləmək pulla deyil ki... Gözləyən dərviş, gəbərmiş...

**Gənc qadın:** - Qardaş, deməyəcəksiniz?

**Sürücü:** - Əşşi, sən bəlasan, nəsən?!

**Gənc qadın:** - Sadəcə, vətəndaşam.

**Sürücü:** *(Əsəbləşir)* - Əşşi, uzatma, keç yerinə! Bir də ki, bu qədər hər şeylə maraqlanma. Nə deyiblər, kimi marağından, kimi... Əstafurullah!

**Gənc qadın:** *(Əsəbləşərək, yerinə əyləşəndə)* - Düşəndə, sizdən şikayət edəcəyəm.

> **Elə ki, uşaqları başına yığıb, süfrə arxasında oturmusan... Burdan da deyirsən ki, bir baxım görək, bu lənətə gəlmiş dünyada nələr baş verir. Lənətə gəlmişi söyüb-sulayırsan... Aman Allah, şorba ağzından-burnundan tökülür.**

**Sürücü:** - Hara istəsən, şikayət elə! Yorulma, adımı da deyim. Yadında qalmırsa, dəftərə yaz. Deyərsən ki, Hayri Çabukun salamları var... Hamısını öpürəm. Onsuz da verdikləri bu pulla ancaq onları öpmək olar... İşə keçdik də!.. *(Əsəbi-əsəbi qalxır, deyinə-deyinə çıxır. Vaqonun qapısını da örtüb gedir.)*

**Gənc qadın:** *(Yerində oturur)* - Elə bil ki, bir qəbahət iş gördüm. Bu kişidən şikayət edəcəyəm.

**Kişi:** - Mənasızdır.

**Gənc qadın:** - Yəni, belə oturaq?

**Qadın:** - Hələ indi gəlmisiniz... Bəs biz neyləyək? Mən bir saatdır gözləyirəm.

**Gənc qadın:** - Bir saatdır, gözləyirsən?.. İnanmaram...

**Qadın:** - Hə, gözləyirəm, düz bir saatdır...

**Gənc qadın:** - Gözləməyə də davam edəcəksən?

**Qadın:** - Hə, edəcəyəm...

**Gənc qadın:** - Boş-boşuna gözləyəcəksən, hə?

**Qadın:** - Xeyyyr... Boş-boşuna yox... Baxın, toxuyub qurtarıram. Qardaşımın oğluna bir jilet... Bir sıxıntı olan kimi, o dəqiqə çantamdan çıxarıram... Qaldığım yerdən davam edirəm... Bura İstanbuldur... Vaxtı dəyərləndirmək lazımdır... Qulağı cingildəsin, bunu mənə Şeynaz xanım öyrətmişdi, qonşumdur. Çox ağıllı qadındır. Amma orini əlində saxlaya bilmədi, pırrr, quş kimi uçurdu... Bax, belə bir fıştırığın dalına düşüb, Hüsnü yuvadan uçdu...

**Kişi:** *(Gənc qadının əsəbdən yerində dayana bilmədiyini, qıvrıldığını görərək)* - Əsəbləşməyin, xanım... Xahiş edirəm!..

**Gənc qadın:** - Az qaldı ki, məni döysün.

**Kişi:** - Döyə bilməz... Çünki yoxdur... Getdi...

**Gənc qadın:** *(Təəccüblə)* - Getdi?.. Hara?..

**Kişi:** - Mən hardan bilim, xanım, getdi də...

**Qadın:** - Bəlkə, bir işi var... Bəlkə də, sıxışdı, tualetə getdi...

**Gənc qadın:** - Vəzifəsini atıb getdi. Siz də şahidsiniz... Elə deyil?

**Kişi:** - Necə olsa, getmək üçün bir səbəbi var. Dərinə getməyinizin sizə nə xeyri olacaq? Hara getdiyini bilsəniz, əlinizdən bir şey gələcək? Bircə marağınızı yox eləmiş olacaq, elə deyil?.. Özünüzü yormayın, dəyməz...

**Qadın:** - Düz sözə nə deyəsən?!

**Kişi:** - Xanım, bir saat yarımdır ki, burdayam. Nə vaxt yola düşəcəyimiz haqda heç nə deyə bilmərəm. Üstəlik, yarım saat sonra keçiriləm iclasa çatmalıyam. Ona görə də tədbirli davranıb, həmişə evdən tez çıxıram. Xanım, Kafkanı tanıyırsınız?

**Gənc qadın:** - Bildiyimiz yazıçı Kafka?

**Kişi:** - Gözəəəl... Bax, o...

**Gənc qadın:** - Kafkanın nə dəxli var?

**Kişi:** - Xanım, yaşadıqlarımız sürreal şeylərdir. Heç bir hadisənin, vəziyyətin səbəbi məlum deyil...

**Gənc qadın:** - Təəccüb olunası işdir.

**Kişi:** - Təəccüblü heç nə yoxdur. Əgər vaxtında hərəkət etsəydik, ya da bütün bu bilmədiyimiz səbəblər bizə açıqlansaydı, bax, yalnız onda təəccüblənərdim. Əslində, ortada bir az da Bekketvari vəziyyət var. Bəli, bəli, Bekket. Əhsən mənə, bu daha düzgün identifikasiya (adlandırma) oldu.

**Gənc qadın:** - Təəccüb edirəm. Çünki siz oxuyub, yazmış adamsınız və ancaq danışırsınız. *(Hiddətlə yerindən qalxır. Bəzənən Gənc qızın yanına gəlir.)* Nəylə məşğulsan?

**Gənc qız:** - Mən?

**Gənc qadın:** - Hə, sən.

**Gənc qız:** - Bir az sonra mənə qulaq asacaqlar... Bəyənsələr, işə qəbul edəcəklər. Elə həyəcanlıyam ki... Birdən bəyənməsələr? Amma bəyənsələr, yaşadıq... İşə başlayacağam.

**Gənc qadın:** - Bu, nə işdir?

**Gənc qız:** - "Fərəh" şadlıq evində müğənni olacağam... Bu işi Xeyrəddin qardaş tapıb. Dedi: "özünü bəyəndirməlisən". Birdən bəyənməsələr? Görəsən, bəyənmələri üçün nə etməliyəm?

**Gənc qadın:** - Hər şeydən qabaq ora çatmalısan... Bax, hələ də burdayıq! Getmir, gözləyirik!

**Gənc qız:** - Bacı! Yarığım çox açıqdır? Xeyrəddin qardaş dedi ki, "qızım, çəkinmə... Nəyin var, qoy ortalığa... Yoxsa, bəyənməzlər..."

**Gənc qadın:** *(Musiqi dinləyən Cavan oğlanın yanına gəlir. Bir müddət baxır...)* - Eyy!.. Bura bax...

**Cavan oğlan:** *(Özünü dinlədiyi musiqi parçasına, sanki təslim edib... Əlləri ilə, ayaqları ilə ritmə uyğunlaşaraq)* - Oynama şıkıdım, şıkıdım...

**Gənc qadın:** - Cavan oğlan, bir bura bax da...

**Cavan oğlan:** - Hamısı sənindir?

**Gənc qadın:** *(Digərlərinə)* - Bu da gəncliyin vəziyyəti... Eh, oğlum! *(Əli ilə dürtmələyir)* Bax da!..

**Cavan oğlan:** - Hamısı sənindir?

**Kişi:** *(Qadına)* - Sizə dedim... Bu qadının cinsi problemi var...

**Qadın:** - Allah ərinə səbr versin... Beş dəqiqə yerində oturmadı... Qadın bir az ağır

olar... Mən belə olsam, bizim kişi bircə gün belə, məni saxlamaz... O dəqiqə qapıdan çölə qoyar...

*(Gənc qadının əli belində, beləcə, Cavan oğlana səbrlə tamaşa edir.)*

**Gənc qız:** - Xeyrəddin qardaş dedi ki, bu gecə yaxşı yat, yoxsa, səsin çıxmaz. Yuxusuzluq səsi pis günə qoyurmuş... Sağ olsun, Xeyrəddin qardaş hər yolu mənə öyrədir... Bu yaxşılıqlarının əvəzini necə çıxacağam, bilmirəm...

**Gənc qadın:** *(Daha dözə bilmir, Cavan oğlanı silkələyir)* - Bir dəqiqə mənə qulaq asa bilərsən?

**Cavan oğlan:** - Oynama şıkıdım, şıkıdım...

**Gənc qadın:** *(Cavan oğlanın başından qulaqlığı çəkir)* - Bax!

**Cavan oğlan:** *(Təəccüblə)* - Nə olub, xanım?

**Gənc qadın:** - Sən nə işlə məşğulsan?

**Cavan oğlan:** - Şey... Musiqiyə qulaq asıram.

**Gənc qadın:** - Bütün gün?

**Cavan oğlan:** - Fürsət tapdıqca... *(Təəccüblə)* Bir də ki, bunun sizə nə dəxli var?

**Gənc qadın:** - Oğlum, sən hardasa işləyirsən?

**Cavan oğlan:** - Tələbəyəm. Niyə soruşursunuz?

**Gənc qadın:** - Bura nə vaxt gəlmisən?

**Cavan oğlan:** *("Görəsən, dəlidir" deyirmiş kimi baxır Gənc qadına)* - Üç ildir. Universitetə daxil olandan bəri burdayam.

**Gənc qadın:** - İstanbula gəlməyini yox, bura nə vaxt gəldiyini soruşuram.

**Cavan oğlan:** *(Hələ də başa düşməyib)* - Bura?

**Kişi:** - Mən gələndə, orda oturmuşdu, "şıkıdım"a qulaq asırdı.

**Gənc qadın:** - Ay səni!.. Özü də tələbədir... Cavan oğlan, xəbərin var ki, burda iki saatdır gözləyirsən?

**Cavan oğlan:** - İki saat olub?.. Ay səni!.. Elə gözəl musiqilər var ki, adam heç bilmir ki, vaxt necə keçir... Bax, bu da musiqinin qüdrəti... Qulaqcığımı verin də... İndi qıracaqsınız... *(Gənc qadına verdiyi qulaqlığı alır)*

**Gənc qadın:** - Başa düşmürsən ki, iki saatdır bu, hərəkət eləmir?

**Cavan oğlan:** - Neyləyim?.. Gözləyiriksə, gözləyək... Əlimdən nə gəlir?!

**Gənc qadın:** - Adını da tələbə qoymusan... Bu yaşa qədər sənə vətəndaşlıq dərsini keçməyiblər? Heç maraqlanmırsan? Bir deməzlər ki, niyə getmirik? Haqqı axtarmağın, səbəbləri araşdırıb, işin bayraqdarı olmağın sənin vəzifən olduğunu bilmirsən?

**Cavan oğlan:** - Əstafurullah! Siz nə danışırsınız, xanım? Mənə nə?

**Gənc qadın:** - Sənə nə?!

**Cavan oğlan:** - Hə, mənə nə? Əlimə nə keçəcək? Məndən böyük qardaşlarım nə qazandılar? "Hər qoyun öz ayağından asılar"ı əvvəldən öyrənsəydilər, bütün bunlar başlarına gəlməzdi. *(Cavan oğlan qulaqlığını başına keçirir. Yenə ritmə uyğun olaraq, musiqiyə qulaq asmağa davam edir.)*

**Gənc qadın:** - Sən necə də qoyunsanmış...

**Cavan oğlan:** - *(Sanki bir yarışma proqramında imiş kimi)* Hə, hə...

**Gənc qadın:** - Səni məktəbdən çıxartsınlar?

**Cavan oğlan:** - Hə, hə...

**Gənc qadın:** - Atanı işsiz qoysunlar?

**Cavan oğlan:** - Hə, hə...

**Gənc qadın:** - Universiteti bitirəndən sonra, səni də işsiz qoysunlar?

**Cavan oğlan:** - Hə, hə...

**Gənc qadın:** *(Digərlərinə)* - Daha sözüm yoxdur... Deməli, bunlar bu qədər hissiyyatsız olublar...

**Kişi:** - Tipik on iki sentyabr uşağıdır...

**Gənc qadın:** - Bəs, siz? Siz də hər halda, on iki mart uşağısınız?!

**Kişi:** *(Xətrinə dəyir)* - Biz heç olmasa, danışırıq... Bunlar birdəfəlik gediblər, xanım...

**Cavan oğlan:** *(Qulaqcığını çıxarıb, Kişiyə qışqırır)* - Əmi, siz Ayda yaşayırsınız? Yoxsa, "mühakiməsiz insaf" haqda heç nə eşitməmisiz? Bir az etiraz, daha əvvəlki kimi deyil, tak, tak, tak, tak... Mort! *(Qulaqcığı taxır, ritmə uyğunlaşaraq)* Oynama şıkıdım, şıkıdım...

**Gənc qadın:** - Bitib, bitib, hər şey bitib... Hamının axırıdır... Amma mən bu işdən əl çəkməyəcəyəm. *(Sürətlə qapıya tərəf qaçır, açmağa çalışır.)* Açılmır... Bu qapı bağlanıb... *(Güc gəlir)* Yox, açılmır...

**Kişi:** *(Könülsüz şəkildə yerindən durur, cəhd edir, aça bilmir)* - Doğrudan da bu qapı açılmır...

**Qadın:** - Kişi gəlib açar...

**Gənc qız:** - Xeyrəddin qardaş dedi ki, "heç nəyə fikir vermə, bu işin başqa çarəsi yoxdur... Nə istəsələr, elə... Nə istəsələr, ver".

**Kişi:** *(Aça bilməyəcəyini başa düşür)* - Mümkün deyil! Açılmır! *(Yerinə oturmaq üçün addımlayır)*

**Gənc qadın:** - Bir dəqiqə! Mənə qulaq asın! Sən də qulaq as mənə, yoxsa, heç müğənni ola bilməzsən!

**Gənc qız:** - Xeyrəddin qardaşım dedi ki, "ver, xilas ol".

**Gənc qadın:** - İndi Xeyrəddin qardaşın yeri deyil.

**Gənc qız:** - Razı salsam, işim alınar.

**Gənc qadın:** - Mənə qulaq as!

**Gənc qız:** - Yaxşı.

**Gənc qadın:** *(Qaçır. Cavan oğlanın başından qulaqlığı çəkir)* - Sən də qulaq as mənə! Baxın, burda qalmışıq. Bu miniyin hərəkət eləməsi qalsın bir qırağa, heç burdan çölə çıxa bilmirik... Bir özünüzə gəlin! Başımıza gələnlərin hamısı sizin laqeydliyinizdəndir... Bütün bunları yoluna qoymaq üçün bir az cəhd göstərmək lazımdır. Hamımız bir yerdə! Əvvəlcə, burdan xilas olaq, sonra mətbuata, məclisə - hər yerə xəbər verək. Danışaq! Mücadilə aparaq!

**Kişi:** - Bunları çox eşitmişik.

**Qadın:** - Bizim kişi eşitsə, məni doğrayar.

**Gənc qız:** - Xeyrəddin qardaş!

**Cavan oğlan:** - Mühakiməsiz!

**Gənc qadın:** - Susun! Susun! Mənə qulaq asın! Dünən bir hakim liftdə qaldı... Düz bir saat... Bax, elə bu cür laqeydliklə hakimi ordan çıxara bilmədilər. O məqamda yanğın başladı və çölə çıxa bilmədiyi üçün kişi kömürə, quruma döndü... Birdən yanğın başlasa, siz, elə bilirsiniz ki, kömür, qurum olmayacaqsınız, qoyunlar?!

*(Birdən əvvəlcə Kişi, sonra Qadın, daha sonra Cavan oğlan və arxalarınca da Gənc qız qapıya tərəf qaçırlar.)*

**Gənc qadın:** *(Qışqırmağa başlayır)* - Bura baxın! Qapı bağlanıb, burda qalmışıq!

**Kişi:** - Kömək edin!

**Qadın:** - Köməəəək!

**Cavan oğlan:** *(Həm qapıya güc gəlir, həm də)* - Eeeeeeeyyy! Eeeeeeyyy!

*(Qışqırıqlar davam edərkən, Cavan oğlanın qulaq asdığı hissə uca, yüksək səslə bütün salonu bürüyür.)*

***Son***

*İstanbul, 1994*

*Dilimizə uyğunlaşdıran:*

***Elvin NURİ***